# HAL ARVAD

## HEKAYƏ



Əli bəy AZƏRİ

Sarabəyim arvad xeyli vaxt idi ki, əri Hüseyxan kişidən bərk şübhələnirdi. Otuz ildən yuxarı olardı ki, bir yerdə yaşayırdılar. Can deyib can eşitməsələr də aralarında ciddi bir narazılıq olmamışdı. İndi birdən-birə niyə belə olmuşdu, Sarabəyim arvad baş aça bilmirdi. Yaşı altmışı adlasa da isti keçən payız havası xoşagəlməz bir qıvraqlıq yaratmışdı ərində, odur ki, şübhə dolmuşdu ürəyinə. Hüseyxan kişi gah tullanıb tut ağacının budağından yapışır, meymun kimi yuxarı dartınıb, aşağı sallanır, gah da yeridiyi yerdə yerindən götürülür, uşaq kimi yüyürürdü. Onun bu hərəkəti arvadını yaman narahat edirdi. Yaşının bu vaxtında belə hərəkətlər saçına-saqqalına yaraşırdımı? Bir söz deyəndə də əhəmiyyət vermirdi, özünü eşitməməzliyə vururdu.

"Aman Allah! Kişi dəli olmasın ki?! Birdən qəlbinə cin girər, gözəgörünməz qüvvələr toxunar, dar vaxtı vurğun vurar, tifağımız dağılar...", deyə düşünən Sarabəyim arvad günü-gündən için-için əriyir, daha çox narahat olmağa başlamışdı.

"Nə olsun ki, neçə vaxtdır kənddə belə şeylər olmur. Axı nə vaxtsa olub... Olub ki, yaşlılar, qocalar həmişə danışıblar. Deməli, bilmədiyimiz, nə vaxtsa eşitdiyimiz hər şey ola bilər". Sarabəyim arvad elə hey düşünür, düşünür, amma bir qərara gələ bilmirdi.

Həmin gün hava yaman tutqun idi. Külək də əsirdi. Payıza xas olmayan tutqun boz günlərdən biriydi. Heç kim belə havada evdən çölə çıxmaq istəməzdi, di gəl Hüseyxan kişi evdə qərar tuta bilmirdi, elə bil gicitkan üstə oturmuşdu. Gah gedib boş-boşuna həyət-bacada fırlanırdı, gah da baltanı götürüb evin böyründə qalaqlanmış odundan soba boyda doğrayıb qışa tədarük görürdü.

- İndidən neynirsən bu odunları yarıb? Sobamızı ki, hələ qalamırıq. - Şalını başına atıb ərinin dalınca çıxan Sarabəyim arvad etirazını bildirəndə odun yarmaqdan qızarıb pörtmüş Hüseyxan kişi də tərs cavab verdi:

- Havanı bilmək olmaz. Bir də gördün lap payızın ortasında qar qapını kəsdi, çalın-çarpaz elə çovğun gəldi ki, evdən eşiyə çıxa bilmədin. Heç belə macal verməd̈i əlini baltaya uzadasan... Onda neyləməliyik? Yorğana bürünüb oturmalıyıq? İndidən yarıb yığıram də... qoy, ehtiyatımız olsun.

Axşamtərəfi Sarabəyim arvadın başı nəyə qarışmışdısa, ayırd olanda baxdı ki, Hüseyxan kişi yenə yoxa çıxıb. Tez həyətə düşüb həyət-bacanı axtardı, odunluğa baxdı, həyətdən çıxıb məhəllənin tən ortasında, Ocaqqulu kişinin gər tutunun beş addımlığında yeddi ev üçün tikilmiş təndirə baş çəkdi, Hüseyxan kişini heç yerdə tapa bilmədi. Kənd adamlarının adətiydi, belə soyuq havada uşaqlar, mal-heyvanın qabağına çıxmış arvadlar, lap elə kişilər də daldalanmaq, soyuqdan, yağışdan, küləkdən qorunmaq üçün təndirə toplaşardılar.

"Bu kişi indicə buralardaydı, qəfildən hara yoxa çıxdı? Yağlı əppəy olub göylərə çəkilmədi ki? Bəlkə, qonşulardan kiməsə gedib? Yox. Bu ola bilməz. Hüseyxan kişi dəvri-qədimdən kiminsə evinə getməyi xoşlamaz. Eyhanə, xeyirdə, şərdə, demiyəsən məcbur qalıb gedər. Olsa-olsa Mətinin damının üstünə çıxar, qonşulardan kiminlə işi olsa, ucadan səslənib çağırar, elə ordaca görüşüb söhbətləşərdi, suvarma, nobat, nə işi olsa, ordaca həll edib yoluna qoyardı. Bir də yaz-yay axşamları kişilər Kərimin evinin arxasına toplaşanda gedib onlara qoşulardı. Bir söz deməsə də, eldən qıraqda qalmağı özünə sığışdırmazdı, qoy siz deyən olsun, deyib nə desəydilər razılaşardı, hörmət aparmacdı, cəhli sevməzdi", - Sarabəyim arvad bunları ağlında ha vərə-vürd elədisə də bir şey çıxmadı.

"İndi heç axşam da deyil. Naxır çöldən qayıtmayıb ki, deyək mallara ot verir. Çox da pis havadır, külək də bir yandan tozu, torpağı süpürləyib adamın gözünə soxur. Belə havada kimin nə işi var küçə-bacada?" Belə deyəndə hardansa ağlına gəldi ki, bir gedib tövləyə də baxsın... Havanın elə vaxtıydı ki, deyirdin indicə şəvinik düşəcək, naxır örüşdən qayıdacaq, xırda davar kəndin aralığına dolacaq. Beş dəqiqənin içində ildırımlar çaxacaq, sel-su aləmi basacaq. Sarabəyim arvad qaçdı tövlənin qapısını açmağa...

Qapını açıb içəriyə baxdı, içəri çox qaranlıq göründü gözünə. Gözləri öyrəşənə kimi orta direyin böyründə nəyinsə hərəkət elədiyini sezdi. Gözlərini ovuşdurub diqqətlə baxdı. Böyrünü direyə söykəmiş nə idisə canlıydı, hərəkət eləyirdi, adamıdımı, heyvan idimi, bilinmirdi, saçınımı, yalmanınımı üzünə dağıtmışdı, sifəti yaxşı görünmürdü. Xumar inəyin axuruna əllərini dirəmiş vəziyyətdə irəliyə dartınırdı, sanki axura girəcəkdi. Sarabəyim arvad qəribə məxluqa baxa-baxa mat qaldı; bu canlı nə idisə, ayırd edə bilmədi, nə adama oxşamırdı, nə inəyə, nə eşşəyə... Bu, nə olmuş olardı? Bir də diqqətlə baxanda ərini gördü. Hüseyxan kişi bu, adama-heyvana oxşamaz məxluqu arxadan qucaqlayıb tutmaq istəyir, amma deyəsən, tuta bilmirdi, nəyidisə, çox vurnuxur, əlləşirdi.

- Hüseyxan! - Birdən Sarabəyimin dili açıldı, özündən asılı olmayaraq qeyri-ixtiyari ucadan səsləndi.

Sarabəyimin qışqırtısına heyvana-adama oxşamaz dikəldi. Kelkanları sifətinə tökülmüşdü deyə, Sarabəyim arvadın gözləri qaranlığa öyrəşsə də sifətini yaxşı görə bilmədi. Ona elə gəldi ki, məxluqatı tanıyır, hardasa görüb, azacıq görünən sifətini nə vaxtsa, hardasa bir dəfə də görüb, çox tanış gəlirdi ona. Kiməsə oxşadırdı, çox oxşadırdı, amma ayırd edə bilmirdi kimə. İlk ağlına gələn cin oldu. Yaşlılar, xüsusən də nənəsi həmişə deyərdi ki, cin adamların gözünə tanıdıqlarının cildində görünür. Tez çölə çıxıb qışqırmaq istədi, ayağı yerindən tərpənmədi, elə bil yerə mıxlanmışdı, səsi də çıxmırdı ki, qışqırsın...

- Nə durub qoyun kimi gözlərini döyürsən? - Hüseyxan kişi arvadına çəmkirdi, ərinin səsi onu fikirdən ayırdı.

Baxdı ki, Hüseyxanın əlləri həmin adama-heyvanaoxşamazın çiyinlərindən qabağa sallanıb uzun, Xumar inəyin məmələrinə oxşar uzun, yekə döşlərindən bərk-bərk tutub, sanki yuxarı dartmağa çalışır. Yanmışın döşləri necə də yekə və uzun idi, az qalırdı çiyinlərindən kürəyinin arxasına aşsın.

- Hüseyxan! - Sarabəyimin səsi açıldı, qəflətən elə dilləndi ki, özü də öz səsindən eymәndi, qadın qısqanclığı bədənini gizildətdi, ayaqdan başa onu bürüdü, ərini bu adama-heyvanaoxşamaz məxluqata qısqandı. - Sən niyə onu elə bərk-bərk tutmusan?

- Bəs necə tutum? Eşitməmisən ki, onu - bax ha, adın çəkmə, adın çəksən, əlimdən çıxıb uçub gedəcək - başqa cür tutmaq olmur...

- Bıyy, başıma xeyir! Hüseyxan, bu odu?

- Həəə...

- Heç görməmişdim. - Sarabəyim arvad sevincdənmi, maraqdanmı diqqətlə baxmağa başladı və istədi ki, yaxın gəlsin. - O uça da bilir? Bəs qanadları hanı?

- Yaxın gəlmə! Hürküdərsən.

- Həə...

- Avam köpəyinqızı. Sənə deyirəm qaç evə, durub baxırsan hələ... Qara çuxamın üstündəki iynəni çıxart, gətir.

- Budey üstümdə saplı iynə də var, sancaq da, isdiyirsən, çıxardım verim. - Sarabəyim arvad əl atdı üstündəki iynəni çıxartmağa.

- Yooxxx... ay arvad, get mənim iynəmi gətir. O iynəyə mollaya dua oxutdurmuşam. Bunu - adın çəkmə ha - ancaq dualı iynə ilə tutmaq olar.

Sarabəyim arvad dalı-dalı çölə çıxdı, gözü elə hal arvadda qalmışdı, yazıx neyləsin, ilk dəfəydi qarşılaşırdı, özü də doğmaca ərinin qucağında.

"İndi Hüseyxan kişi onu tutub neyləyəcəkdi? Hər gün tövləni süpürtdürəcəkdi, yoxsa paltar-palazı yudurtduracaqdı? Bəs gecə yatanda harda yatırdacaqdılar? Birdən gecə durub hamısını boğardı, sonra da ucub gedərdi... Yox, Hüseyxan kişi dünyagörmüş adamdır, dünyanın cikini də bilir, bikini də... O, hal arvadı elə-belə qucaqlayıb bərk-bərk tutmayıb, əlbət ki, bir fikri var. Ölmüş necə də ucaboyludur! Qarın-qartası necə də ağappaqdır, qaranlıq tövlədə ağ maya süd kimi işıq saçır, adamın gözün qamaşdırır. Canı yanmasın, bir suyumu da Tamam arvada oxşayır e..."

Sarabəyim arvad bir istədi qışqırıb kəndə haray salsın, qorxdu ki, hal arvad hürkər, Hüseyxan onu saxlaya bilməz, kişinin əlindən çıxıb gedər. Kirimişcə evə girdi, Hüseyxanın qara çuxasının yaxalığına sancılmış iynəni çıxartdı və yüyrək yerişlə tövləyə qayıtdı. Tövlənin qapısında əri ilə qarşılaşdı, başıaşağı gəldiyindən az qaldı ki, toqquşsun.

- Ay kişi, bəs hal arvad hanı?

- Axmağın qızı, axmaq, görmürdün güclə saxlamışam, vurnuxub əlimdən çıxmaq istəyirdi. Sən də bir saata gedib gəldin. Məndə o qədər güc hardandı, camış kimi güclü halı tutub saxlaya bilim...

Hüseyxan kişi demyəsindən bir qüllab vurub belini tutdu və yerə çöməldi. Sarabəyim arvad qarnında bir ağrı hiss etdi, soldan sağa sancı onu doğrayırdı. "Yazıx Hüseyxan! Hal arvad necə güc gəlibsə, kişinin belini səpdirib, ağrısı ində mənə çatdı", deyə ərinə yazığı gəldi.

- Sənsən də özünü gücə salırsan... Nəyinə lazımdı hal arvadı tutmaq? Tutalım ki, tutub saxladın, neyləyəcəkdin?

- Tutub neyləyəcəkdim?! Sənə görə tuturdum dayna... Tuturdum ki, tavlanı kürütdürəm, sənə köməy eləsin, kəhrizdən suyunu daşısın. Paltar-palazını yusun...

Sarabəyim arvad razılıq əlaməti olaraq başını tərpətdi.

- Bəs qorxmurdun ki, birdən erkəyi dalınca gəldi? Heç dişisinə güc çatmır tutub saxlayasan, indi gör erkəyi nə gücdədir... Basıb səni də, məni də xurdxəşil edəcəkdi, qol-qabırğamızı sındıracaqdı.

- Ağzına gələni danışma! Hal arvadın erkəyi olmur.

- Bıy, başıma xeyir. Bəs bu hardan doğub-törüyür?

- Mən nə bilim hardan doğub-törüyür? - Hüseyxan kişi elə çəmkirdi ki, Sarabəyim arvad qorxusundan misdı, daha səsini çıxartmadı. - Doğmur. Bunları Allah elə-belə yaradıb...

Hüseyxan kişi demisini çəkib ayağa qalxdı.

- Dur ayağa. - deyə arvadına təpindi. - Nəbadə gördüklərini ağzından qaçırdasan ha... Haldı, cindi, bunların hər şeydən xəbəri olur, gecəykən gəlib yatdığımız yerdə hamımızı boğub gedər. Biz cəhənnəmə, yaşadığımızı yaşamışıq, gördüyümüzü görmüşük. Uşaqlar yazıqdır.

Bir həftədən sonra bütün kənd Hüseyxan kişinin hal arvad tutmasından, tavlanı kürütməsindən, kəhrizdən su daşıtdırmasından, paltar-palaz yudurtmasından danışırdı. Bu sirr Sarabəyim arvadın kilidli ağzından necə çıxıb yayılmışdı, bir sirri-xuda idi.

Elə Hüseynxan kişi də buna mat qalmışdı.